# "Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər"



Ulu öndərimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizdə siyasi sabitliyin yaranması ilə yanaşı, iqtisadi inkişafın da əsasını qoydu. Məhz Ümummilli Liderimizin ölkəmizin inkişafı ilə bağlı həyata keçirdiyi siyasət, davamlı konsepsiya müasir, müstəqil və qüdrətli Azərbaycanın yaranmasına təkan verdi. Öz növbəsində, Ulu Öndərin siyasi kursunu uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünya miqyasında daha çox tanıdılması, o cümlədən, vətəndaşlarımızın sosial rifah halının daha da yüksəldilməsi istiqamətində davamlı addımlar atılır. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanın hər bir guşəsində abadlıq-quruculuq işləri aparılır və bu işlər isə təkcə paytaxt Bakı ilə məhdudlaşmır, regionlarımızı da əhatə edir. Vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları, həmçinin Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının uğurla icrası paytaxtımızda və onun rayonlarında yüksək inkişafı şərtləndirib. Hər zaman sənaye potensialı ilə ön sıralarda yer alan Bakının Nizami rayonu da bu inkişafa öz töhfəsini verir.

### Nizami rayonunun iqtisadi göstəriciləri ildən-ilə artır

Rayonun iqtisadi göstəriciləri olduqca yüksəkdir. Bunu statistik rəqəmlər də təsdiqləyir. Daha dəqiq desək, ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində Nizami rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülür və bu işlər hazırda da uğurla davam etdirilir. Belə ki, bu günədək rayonda fəaliyyət göstərən müəssisələr tərəfindən 347 milyon manat dəyərində məhsul istehsal edilib ki, bu da ötən illə müqayisədə 5,1 faiz çoxdur. İstehsal olunmuş məhsulun 24,8 faizi qeyri-dövlət sektoruna aiddir. Sənayenin dövlət sektorunda 261 milyon manatlıq və ya ümumi istehsalın 75,2 faizi qədər məhsul istehsal edilib və xidmətlər göstərilib. Müəssisələr tərəfindən bazar münasibətlərinin düzgün qurulması nəticəsində də istehlakçılara 365 milyon manat dəyərində məhsul göndərilib. Eyni zamanda, rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına əsas kapitala 163 milyon manat həcmində investisiya yönəldilib.

### Son 12 il ərzində rayonda 28109 yeni iş yeri açılıb

Qeyd etmək yerinə düşər ki, son 10 ay ərzində Nizami rayonunda 1847 yeni iş yeri açılıb ki, ondan 307-si yenidir, 210-u mövcud müəssisə və təşkilatlara, 1330-u isə fiziki şəxslərə aiddir. Ümumilikdə isə 2003-cü ildən bu günə kimi rayonda 28012-si daimi iş yeri olmaqla 28109 yeni iş yeri açılıb. Həmçinin, orta aylıq əmək haqqı ötən illə müqayisədə təxminən 8 faiz artaraq 529 manat təşkil edib.

### Gənclərə dövlət qayğısı, təhsilin və səhiyyənin inkişafı yüksək səviyyədədir

Nizami rayonunda gənclərə, təhsil və səhiyyə sahəsinə olan xüsusi diqqət sayəsində sosial sektorda əhəmiyyətli dəyişikliklər də baş verib. Bunu əlbəttə ki, təhsil və səhiyyə sektorunda əldə edilən nailiyyətlərdən də görmək mümkündür. Belə ki, 2014/2015-ci tədris ilində rayonun orta ümumtəhsil məktəblərini bitirmiş 2061 şagirddən 1882 nəfəri ali məktəblərə sənəd verib və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının verdiyi rəsmi məlumata görə, sənəd verənlərin 1190 nəfəri, yəni 63,2 faizi tələbə adını qazanıb. Halbuki bu rəqəm ötən il 66,1% təşkil etmişdi. Eyni zamanda, rayon üzrə 1 nəfər 700 bal, 94 məzun isə 600-dən yuxarı bal toplayıb, onlardan da 26 nəfəri 650 baldan yüksək nəticə göstərib. Xüsusilə də, qeyd edilməlidir ki, Nizami rayon məktəblərini bitirən 7 nəfər Prezident təqaüdünə layiq görülüb. Bunlardan əlavə, Prezident İlham Əliyevin Sərəncamına əsasən Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə rayonun 2 nəfər təhsil işçisi "Tərəqqi" medalı ilə təltif olunub.







Təhsil sahəsinin uğurları rayon şagirdlərinin respublika və beynəlxalq bilik yarışlarında da parlaq nailiyyətlərində özünü büruzə verir. Belə ki, Kimya-biologiya liseyinin XI sinif şagirdi Namazov Nadir Mehdi oğlu Bakı şəhərində kimya fənni üzrə keçirilmiş 47-ci beynəlxalq olimpiadada II turda II yerə çıxıb, "İstək" liseyinin XI sinif şagirdi Alıyev Tural İlqam oğlu Çin və Hindistanda fizika fənni üzrə, VIII sinif şagirdi Abbaslı Anar Yusif oğlu Serbiyada riyaziyyat fənni üzrə, VIII sinif şagirdləri - Balayev Nicat Nəzir oğlu və Əlizadə Fərid Fuad oğlu isə Rumıniyada informatika fənni üzrə keçirilmiş olimpiadalarda III yerləri tutaraq Bürünc medal qazanıblar.

Rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də müvafiq işlər görülüb, 103 №-li uşaq bağçası əsaslı təmirdən sonra istifadəyə verilib. Həmçinin, bu gün "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən 12 №-li tam orta məktəbdə 200 yerlik, 32 №-li tam orta məktəbdə 640 yerlik və 238 №-li tam orta məktəbdə 320 yerlik əlavə korpusların tikintisi davam etdirilir, Bakı Texniki Kollecin və Kimya-biologiya təmayüllü respublika liseyinin isə əsaslı təmiri və yenidənqurulması başa çatdırılıb. Bundan əlavə, Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı"na töhfə vermək məqsədilə Rayon İcra Hakimiyyəti tərəfindən daxili resurslar hesabına 110 və 172 №-li uşaq bağçalarının hər birində 80 yerlik əlavə korpus tikilib, Keşlə qəsəbəsi, Babək prospekti, 2269-cu məhəllədə 100 yerlik, T.Abbasov küçəsi 28 ünvanında isə 120 yerlik yeni özəl uşaq bağçalarının inşası isə davam etdirilir.



Bütün bunlarla yanaşı, rayonun səhiyyə müəssisələri tərəfindən əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, sanitar-gigiyenik vəziyyətə müntəzəm nəzarət edilməsi, əhali arasında infeksion, parazitar xəstəliklərin, qida zəhərlənmələrinin qarşısının alınması və ləğv edilməsi istiqamətində işlər davam etdirilir.

### Rayon ərazisində əhalinin rahat yaşamını təmin etmək əsas prioritetdir

Rayonun xidmət və təsərrüfat idarələri tərəfindən tabeçiliklərində olan ayrı-ayrı təsərrüfatlarda da mühüm işlər həyata keçirilir. Məsələn, rayon istilik təsərrüfatı 33 qazanxanaya və 1 istilik məntəqəsinə xidmət göstərir və bu gün 530 binadan 430-a yaxın binaya istilik verilir.

Rayon Qaz İstismar sahəsi istehlakçıları qazla təmin etmək üçün 188,1 min p/m qaz kəmərinə xidmət göstərir və bu kəmərlərdən 62,7 min p/m orta təzyiqli, 125,4 min p/m isə aşağı təzyiqlidir. Rayon qaz xətləri üzərində ümumilikdə 231 ədəd qaz tənzimləyicisi mövcuddur. Nizami Qaz İstismar sahəsi ümumilikdə 53145 abonentə, o cümlədən 52367-si əhali, 778-i qeyri əhali abonentinə xidmət göstərir.

Elektrik enerjisi təsərrüfatı üzrə rayonun elektrik təchizatını yaxşılaşdırmaq üçün B.Çobanzadə küçəsində Y/st "8 km" - PQ 7 N 2 xəttinə 1 ədəd KRUN quraşdırılıb, PQ 7 N 1 və N 2 hava xəttinin 700 metri, Babək prospektində 850 metr hava xətti yeraltı kabel xətti ilə əvəz edilib və 2 ədəd KRUN quraşdırılıb. "Koroğlu" Y/st-na 35kV-luq 2x1250 metr kabel xətti çəkilib, M.Əliyev küçəsində 1380 metr hava xətti yeraltı kabel xətti ilə əvəz edilib, "Sərin" otel restoranına gedən "8 km" yarımstansiyadan M.Əliyev küçəsi boyunca 10kV-luq 500 metr hava xətti ləğv edilib. 9 TM-də tam cari təmir-təftiş işləri aparılıb. Bundan əlavə "Atletlər kəndi"ni elektrik enerji ilə təchiz etmək məqsədilə 2x110 metr, "Fontanlar" parkına 2x1450 metr, Heydər Əliyev prospektində yeni tikilmiş stadionun ətrafındakı küçələrin işıqlandırılması məqsədilə 1150 metr kabel xətti çəkilib. Əhali sektorunda isə 55872 abonentə xidmət göstərilib ki, onlardan 55078 (98,6%) abonentə sayğac quraşdırılıb.

Su təchizatı və kanalizasiya xidməti ilə bağlı rayon Sukanal Departamenti tərəfindən isə ayrı-ayrı ünvanlarda müxtəlif diametrli 2018 p/m su borusu, 23 ədəd siyirtmə, 196 ədəd nasos, 68 ədəd elektrik mühərriki dəyişdirilib, 446 p/m kanalizasiya borusu təmir olunub, 60 ədəd lyuk asfalt səviyyəsinə qaldırılıb. Su təsərrüfatı üzrə 52342 abonentə xidmət göstərilib, onlardan 42530 (81,3%) abonentə sayğac quraşdırılıb. Tender təşkilatları tərəfindən 16000 p/m mövcud məhəllədaxili su boruları yenisi ilə əvəzlənib və hazırda işlər davam etdirilir.

Rayon Lift təsərrüfatı üzrə 22 ədəd 3,5 kv-luq elektrik mühərriki, 28 ədəd 380/110 Kv-luq transformator, 28 ədəd 0,18 Kv-luq elektrik mühərriki, 10 ədəd əyləc dolağı, 6 ədəd əsas şkif təmir edilib, 2415 metr müxtəlif diametrli buraz yenisi ilə əvəz edilib.

Kommunal mənzil fondunun istismar keyfiyyətinin yaxşılaşdırılması, onun qorunub saxlanılması məqsədilə 13140 m2 şüşəli ruberoid, 2905 m2 şifer dam örtüyü təmir edilib, 370 p/m su xətti, 1191 p/m kanalizasiya xətti, 1087 p/m yağış su boruları dəyişdirilib, ümumi istifadə yerlərinin sınmış 666 m2 şüşəsi yenisi ilə əvəz edilib, 286 ədəd mövcud giriş qapıları, 97 ədəd pəncərə təmir olunub, 997 p/m tüstü bacası və ventilyasiya kanalları təmizlənib, 54 ədəd divar sobası təmir olunub, xidməti binalarda uzun müddət istismarda olan bəzi liftlərin ümumi şkafdan maşın şöbəsinə gedən elektrik naqillərinin 949 p/m-i yenisi ilə əvəz olunub, rayon ərazisində 320 ədəd kiçik tutumlu urna quraşdırılıb. Güclü külək səbəbindən aşmış 240 ədəd ağac doğranaraq ərazidən daşınıb və hazırda ağacların budanması, qurumuş ağacların kəsilməsi işləri davam etdirilir. O cümlədən 1250 ədəd müxtəlif növ ağac əkilib. Eyni zamanda, rayonda böyük asfaltlama, parksalma işləri həyata keçirilir.

### Həllini gözləyən müəyyən problemlər də aradan qaldırılacaq

Əlbəttə ki, görülən bütün işlərlə yanaşı hələ də müəyyən problemlər qalmaqdadır. Təbii olaraq, bu problemlər müxtəlif sahələrə aid olduğundan onların həlli müəyyən müddət ərzində baş tutacaqdır. Məsələn, hələ də istilik almayan 110-dan artıq binanın istilik sisteminin bərpası, ayrı-ayrı ünvanlarda müxtəlif diametrli kanalizasiya xətlərinin dəyişdirilməsi, "Təbriz" kinoteatrının qarşısındakı parkın təmiri, Q.Qarayev prospektinin yenidən qurulması, çoxmənzilli yaşayış binalarının lift təsərrüfatının yenilənməsi, dam örtüyünün təmir edilməsi, yağış navalçalarının dəyişdirilməsi, həyətlərin abadlaşdırılması, təhsil, səhiyyə, mədəniyyət və idman sahələri üzrə 6 orta məktəbin, 1 kollecin, 1 peşə liseyinin, 2 uşaq bağçasının, 2 səhiyyə müəssisəsinin, 1 məktəbdənkənar tərbiyə müəssisəsinin əsaslı təmir edilməsi, 2 orta məktəbin hər birində 640 şagird yerlik əlavə korpusların, 2 orta məktəbdə ümumilikdə 26 əlavə sinif otağının, 2 orta məktəbdə isə yeni idman zalının, 2 yeni özəl bağçanın tikilməsi və s. həllini gözləyən məsələlərdəndir. Düşünürük ki, cənab Prezident İlham Əliyevin rəhbərliyilə bu problemlər də vaxtında həllini tapacaq və Nizami rayonunda mövcud sosial-iqtisadi rifahın vəziyyəti daha da yüksələcək.

**Rəşad Bağırov,**
***"İki sahil"***

**"Nizami Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçün"**